# Səfir Vada Cüniçinin Zaqatala rayonuna səfəri

27 iyul tarixində Səfir Vada Cüniçi Zaqatala rayonunda rəsmi səfərdə olmuşdur. Səfər zamanı səfir Zaqatala Rayon İcra Hakimiyyətinin Başçısı Mübariz Əhmədzadə ilə rəsmi görüş həyata keçirmişdir. Görüş zamanı Zaqatala rayonunda “Ot Kökləri və İnsan Təhlükəsizliyi” Qrant Yardımı Proqramı çərçivəsində icra olunmuş layihələr, hər iki ölkə arasında biznes və mədəni əlaqələrlə bağlı fikir mübadiləsi aparılmışdır.

Bundan əlavə, səfir Zaqatalanın Zəyəm kəndində “Ot Kökləri və İnsan Təhlükəsizliyi” Qrant Yardımı Proqramı çərçivəsində icra olunmuş içməli su təchizatı sisteminin açılış mərasimində iştrak etmiş, həmçinin Aşağı Tala kəndinə “Ot Kökləri” Qrant Yardımı Proqramı çərçivəsində inşa olunmuş tibb məntəqəsinə və bağışlanmış təcili tibbi yardım maşınına baxış həyata keçirmişdir.

Son olaraq, Zaqatala rayonunda yerləşən qızılgül-lavanda gül yağı emalı zavodu və fındıq emalı zavodu ziyarət olunmuşdur.

**İcra Hakimiyyəti başçısı ilə rəsmi görüş**



**Zəyəm kəndinin içməli su təchizatı sistemi**



**Zəyəm kəndinin içməli su təchizatı sisteminin açılış mərasimi**



**Aşağı Tala kəndi tibb məntəqəsinə baxış**



**Zaqatala Rayonuna bağışlanmış təcili tibbi yardım maşını**



**Fındıq email zavodu**

